# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

## QƏRAR

**№ 251**

**Bakı şəhəri, 1 iyul 2015-ci il**

## "Nəzarət markasının alınmasına görə ödənilən haqqın məbləği"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 iyul tarixli 214 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1227-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2015-ci il 3 aprel tarixli 496 nömrəli və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1228-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2015-ci il 3 aprel tarixli 497 nömrəli fərmanlarının 1.2-ci bəndlərinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 iyul tarixli 214 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 904) ilə təsdiq edilmiş "Nəzarət markasının alınmasına görə ödənilən haqqın məbləği"nə aşağıdakı məzmunda 6-7-ci hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 6. | "DİNİ TƏYİNATLI" - dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarda), audio və video materiallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materialları | 0,02 |
| 7. | "DƏRMAN VASİTƏLƏRİ" - dərman vasitələri | 0,01 |

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**